# AĞCABƏDİDƏ BAYTARLIQ XİDMƏTİ

**Müstəqil Azərbaycan 2015-ci ilin birinci yarısını da hər bir sahədə uğurla başa vurdu. Ölkə başçısının apardığı daxili və xarici siyasət sayəsində uğurlar hər sahədə özünü göstərir. Ərzaq təhlükəsizliyinin təmin olunması isə aparılan gərgin işlərin mayasını təşkil edir. Bu işdə baytarlıq xidməti işçilərinin rolu və məsuliyyəti böyükdür.**

Ağcabədidə olarkən sahənin işçiləri ilə söhbət etdik. **Rayon Baytarlıq İdarəsinin rəisi Savalan Xudiyev** bizimlə söhbətində kollektivin işi barədə ətraflı məlumat verərək bildirdi ki, Ağcabədidə insanlar qədimdən maldarlıqla məşğul olmuş, bu torpaqlar tarix boyu həmin məqsəddən ötrü əlverişli ərazilər hesab olunmuşdur. Rayonun iqlimi, su, torpaq və relyefi, mal-qara və davar saxlamaq üçün səmərəlidir.

Rayonun təsərrüfatlarında 87 min baş iribuynuzlu, 330,3 min baş xırdabuynuzlu heyvan saxlanılır. Kollektivin üzvləri qan nümunələrinin yoxlanılmasını vaxtında həyata keçirmiş, brüsellyoza yoluxmuş heyvanlar zərərsizləşdirilmişdir. Qarayara, vərəm, leptospiroz, dabaq, brüsellyoz, çiçək xəstəliklərinə qarşı iribuynuzlu və xırdabuynuzlu, habelə təkdırnaqlı heyvanlarda profilaktik tədbirlər aparılmış, xəstə heyvanlar dərhal çıxdaş edilmişlər. Ev quşlarında Nyukasl xəstəliyinə qarşı peyvəndləmə işləri görülmüşdür. Hazırda ucqar kəndlərdə yerləşən məntəqələrdə profilaktik tədbirlər epizootik plana uyğun davam etdirilir.

Bunun üçün rayon ərazisində 16 baytarlıq sahəsi, diaqnostika kabineti, baytar-sanitar ekspertiza laboratoriyası fəaliyyət göstərir. İdarədə 49 nəfər işçi çalışır. Sakinlərlə və təsərrüfatların başçıları ilə birbaşa əlaqələr qurulmuşdur, baytarlıq mütəxəssisləri tez-tez yerlərdə olur, xəstəliklərə qarşı mübarizənin təşkilində fermerlərə və fiziki şəxslərə əməli kömək göstərirlər. Əhali arasında müntəzəm olaraq seminarlar keçirilir, əhaliyə lazımi təlimat və izahat verilir. Bu sahədə yerli icra strukturları və bələdiyyələrlə, ictimai təşkilatlarla birgə iş fayda verir.

Bazar iqtisadiyyatının inkişaf etdiyi hazırkı şəraitdə insanlar və heyvanlar üçün ümumi olan yoluxucu xəstəliklərin baş verməsinin qarşısını almaq məqsədilə daha ciddi tədbirlər həyata keçirilmiş, qaydaları pozan 78 nəfər barəsində cərimə tədbirləri görülmüşdür. Bir qayda olaraq satış üçün kəsilmiş heyvanlar və heyvan mənşəli məhsullar dəqiq təhlil edildikdən sonra ət dükanlarına və bazarlara çıxarılır.

Müdriklər deyiblər ki, əgər can həkimi insanı müalicə edirsə, baytar həkimi bəşəriyyəti bəlalardan xilas edir. Bu sözlərdə dərin hikmət və həqiqət vardır və bunu hər birimiz yaxşı başa düşürük. Rayonun ucsuz-bucaqsız düzlərində mal-qara və qoyun-quzu sürülərinin sayı-hesabı yoxdur. Heyvandarlıq isə elə bir sahədir ki, gərək heyvanlara hər zaman yaxşı baxasan, yemini-suyunu bol eləyəsən, xəstəliklərdən qoruyasan. Bu işə hərtərəfli kömək göstərmək həm vəzifə, həm də vətəndaşlıq borcumuzdur. Vaksinasiyaların vaxtlı-vaxtında aparılması, müşahidələrin düzgün təşkili üçün bütün qüvvəmizi sərf edirik. Xüsusən mal-heyvan saxlanılan binaların daha yüksək səviyyədə sahmana salınması, yoluxucu xəstəliklərə qarşı dezinfeksiya tədbirlərinin yaxşılaşdırılması üçün hələ xeyli əmək sərf etmək lazımdır. Mən kollektivin rəhbəri kimi əminəm ki, işçilərimiz baytarlıq tədbirlərini bundan sonra daha yüksək səviyyədə aparacaq, əhalinin keyfiyyətli və sağlam ərzaq məhsulları ilə təminatını daha da yaxşılaşdırmaq işinə kömək göstərəcəyik.

**S.MUSTAFAYEV,**
**“Respublika”.**